**Şəhidlik. Vətən və millət yolunda canından keçənlərin fəth elədiyi ən uca və müqəddəs bir zirvə. Bu zirvəyə ucalanlar Günəş ömrü yaşamaqla heç zaman ölmürlər. Məhz 1990-cı ildə Lənkəranın Yuxarı Nüvədi kəndində dünyaya göz açan Vüsal Kamran oğlu Kazımova belə şərəfli ömür nəsib oldu. 44 günlük haqq savaşımızda qazanılan parlaq qələbəmizin qəhrəmanlıq simvoluna çevrilərək əl çatmaz, ünyetməz göylərə ucaldı.**

# Baş leytenant Vüsal Kazımov şəhidliyinin ildönümündə anıldı...

*"2020-ci ilin 29 noyabrı. Mənə ömürlük kədər gətirən həmin gün. 5 il keçdi... Amma yolunu gözləyirəm, igid oğlum!"- Professor, şəhid atası Kamran Kazımov*




Bəli, zəfər şəhidi baş leytenant Vüsal Kazımovun şərəfli ölümü onu torpağa gömmədi, köç etdiyi yer könüllər oldu. Vətən sevdalısı indi beşinci ildir öz ulduzlu dünyasında qürur yerimizə dönüb. Böyük sevgi və məhəbbətə layiq olan zəfər şəhidinin vaxti ilə oxuduğu Lənkəran rayonunun M. Mirzəcanov adına məktəbində anım günü münasibətilə tədbir oldu. "Qarabağ Azərbaycandır" adlı bu tədbirə, demək olar ki, Azərbaycanımızın hər yerindən gələnlər var idi. Ziyarətçilərin arasında olan Astara Pedaqoji Kollecinin kollektivi də ölümsüzlüyə qovuşan qəhrəman Vüsalın əziz xatirəsini dərin ehtiramla andılar. Belə ki, boya-başa çatdığı halal ailə ocağında oldular, yatdığı müqəddəs yeri ziyarət edib, məzarı önünə əklil qoyub tər güllər düzdülər.

Vüsal Kazımov doğma kənd məktəbimdə orta təhsilini başa vurub Vətəninə, xalqına gərəkli olmaq üçün Lənkəran Dövlət Universitetinə daxil olub. Əla oxuması, nümunəvi davranışı ona yalnız hörmət qazandırıb. Təhsil aldığı "Fiziki tərbiyə və gənclərin çağırışaqədərki hazırlığı" ixtisasını yüksək səviyyədə bitirib. İkinci ixtisas almaq məqsədilə yenidən həmin ali məktəbə üz tutub. Və burada qiyabı yolla "Mühasibat uçotu və audit" ixtisasına yiyələnib. Təhsili ilə bərabər, Lənkəran şəhər gənclər və idman idarəsinin nəzdində Uşaq-Gənclər İdman Məktəbinin direktoru vəzifəsində çalışıb.

Qəlbi Vətən eşqli, əzəli yurd yerimiz olan Qarabağımızın düşmən tapdağında qalmasına dözməyən Vüsal Kazımov 27 sentyabr 2020-ci ildə Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsinə könüllü gedib. Əlinə silah alıb müharibə meydanına girən andan baş leytenant yağının kabusuna çevrilib. Füzuli əməliyyatında, Cəbrayıl, Xocavənd uğrunda döyüşlərdə, erməni dığalarına sarsıdıcı zərbələr endirib. Daha sonra Şuşada ağır ölüm-dirim savaşında sözün əsl mənasında tarix yazıb. Sonuncu dəfə 26 oktyabrda ailəsi ilə əlaqə saxlayan igid komandir Şuşanın azad edilməsi uğrunda gedən döyüşlərdə son nəfəsinə qədər qəhrəmanlıqla vuruşaraq, şəhid olub əbədiyyətə qovuşub. 29 noyabr 2020-ci il tarixində Lənkəran rayon Yuxarı Nüvədi kəndində böyük izdihamla sevdalandığı Vətən torpağı öz oğlunu ağuşuna alıb.

Qısa həyat yolu mərdlik nümunəsi kimi tarixə yazılan baş leytenant Vüsal Kazımov ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda", "İgidliyə görə", Xocavəndin və Füzulinin azadlığı uğrunda medallarına layiq görülüb.

Özündən sonra iki qızı hər şeydən əziz bildiyi Vətəninə yadigar qalıb - Nuray və Aynur. Onlar ataları ilə qürur duyur, onun kimi şərəfli ömür yoluna yön alıblar.

***Zəfər ORUCOĞLU***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***

Bakı Xəbər .- 2025.- 4 dekabr (№220).- S.15.